**UOT** 343.353.1

**Bəhruz MÜSLÜMOV**
*Bakı Dövlət Universitetinin*
*Cinayət hüququ kafedrasının doktorantı*
*e-mail: bahruzmuslumov@gmail.com*
DOI: https://doi.org/https://doi.org/10.62130/LAFX1532

# VƏZİFƏ SƏLAHİYYƏTİNDƏN SUİ-İSTİFADƏ CİNAYƏTİNİN OBYEKTİV CƏHƏTİ

**XÜLASƏ**

*Bu məqalədə vəzifə səlahiyyətindən sui-istifadə cinayətinin obyektiv tərəfi təhlil edilir. Cinayətin obyektiv tərəfinin zəruri və fakültətiv əlamətləri qeyd olunur. Zəruri əlamətlər hərəkət və hərəkətsizlikdə, fakültətiv əlamətlər isə zaman, yer və nəticə kimi mühüm əlamətlərdə əks olunur. Bu cinayətə xas olan mühüm məsələ hərəkət, hərəkətsizlik və nəticə arasında birbaşa səbəb-nəticə əlaqəsinin olmasıdır.*

***Açar sözlər:*** *obyektiv cəhət, korrupsiya, hərəkət, hərəkətsizlik, sui-istifadə, nəticə*

Cinayətin obyektiv cəhəti cinayətin dörd vacib əlamətindən biridir. Cinayətin obyekti, subyekti, subyektiv cəhəti ilə birlikdə xarakterizə olunan bu komponent digər elementlərlə birlikdə cinayətin vahid tərkib hissəsini təşkil edir. Qeyd olunan cəhətlərdən birinin olmaması həm də cinayətin olmaması deməkdir.

Obyektiv cəhət cinayətin zahiri cəhətidir. Müəyyən zamanda, məkanda, şəraitdə baş verməklə ictimai təhlükəli qəsdin zahiri cəhətini özündə ehtiva edir. Cinayətin zahiri cəhətini təşkil etməklə əməli konkretləşdirir.

Cinayətin obyektiv cəhəti cinayət hadisəsini, nəticəsini, nəticə ilə hadisə arasındakı səbəbli əlaqəni, zamanı, məkanı, alət və vasitəni, cinayətin törədilmə üsulunu, şəraiti özlüyündə ehtiva edir. Cinayətin obyektiv cəhətinin əlamətlərini zəruri və fakültətiv əlamətlər kimi iki qrupda şərh olunur [2, s.58-61].

Zəruri əlamətlər: hərəkət və hərəkəsizlikdə ifadə olunur.

Fakültətiv əlamətlərin isə dairəsi daha genişdir burada nəticə, səbəbli əlaqə, zaman, məkan, şərait, istifadə olunan alət və vasitədə ifadə olunur.

Zəruri əlamətlər bütün cinayətlər üçün vacib olsa da, fakültətiv əlamətlər heç də hamısının bir cinayətdə olması vacib deyil.

Cinayətlərin obyektiv cəhətini şərh edərkən məlum olur ki, mövcud qanunvericiliyimiz bunu sistemləşdirərək obyektiv cəhəti bir neçə şəkildə xarakterizə edib.

1999-cu ildə qəbul olunmuş Cinayət Məcəlləsinin 7-ci maddəsində cinayətin obyektiv cəhətinə toxunularaq qeyd olunmuşdur ki, yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər. Burada cinayətin obyektiv cəhəti hərəkət və hərəkətsizlik olaraq xarakterizə olunmuşdur. Hərəkət subyektin davranışının fəal, yəni aktiv şəkildə, hərəkətsizlik isə passiv şəkildə olan davranışıdır [1, s.5].

Eləcə də, fakültətiv əlamətlərə daxil olan nəticə ictimai təhlükəli əməldə ehtiva olunmaqla birbaşa ictimai təhlükəli nəticəni tələb etdiyi maddələr var. Cinayət Məcəlləsinin 127-ci maddəsində qeyd olunur ki, qəsdən sağlamlığa az ağır zərər vurma dedikdə zərərçəkmiş şəxsin həyatı üçün təhlükəli olmayan və bu Məcəllənin 126-cı maddəsində nəzərdə tutulan nəticələrə səbəb olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olmuş və ya ümumi əmək qabiliyyəti-

nin üçdə bir hissəsindən az olmaqla əhəmiyyətli dərəcədə itirilməsi ilə nəticələnən qəsddir. Subyektin hərəkətinin mütləq nəticəsi tələb olunur, hərəkətlə nəticə arasında səbəbli əlaqədə ifadə olunur.

Lakin ictimai təhlükəli nəticə hər zaman vacib deyil. Belə ki, Cinayət Məcəlləsinin 217.1-ci maddəsində qeyd olunan banditizm cinayətinin dispozisiyasında deyilir ki, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədilə sabit silahlı qruplar (bandalar) təşkil etmə, belə qruplara (bandalara) rəhbərlik etmə cinayət məsuliyyətinə səbəb olur [5, s.68].

Qeyd olunan cinayət əməli üçün nəticənin yaranması tələb olunmur. Şəxsin qeyd olunan aktiv hərəkətləri edərək silahlı qrupları təşkil etməsi və onlara rəhbərlik etməsi kifayət edir ki, başqa bir nəticəyə ehtiyac olmadan cinayət məsuliyyətinə cəlb olunsun.

Üçüncü qrup dispozisiyada isə hərəkət və hərəkətsizliklə yanaşı, mütləq tələb həm də ictimai-təhlükəli nəticənin olmasıdır və bunların arasındakı səbəbli əlaqədə ehtiva olunur. Belə ki, burada tələb obyektiv cəhətin zəruri əlamətinin törədilməsi ilə birlikdə ictimai-təhlükəli nəticəni də xarakterizə edir. Korrupsiya cinayətləri məhz bu qrupa aid olur.

Korrupsiya cinayətlərini şərh edən zaman burada bəzi əməllərin hərəkətdə, bəzilərinin isə hərəkətsizlikdə ifadə olunmasını müəyyən edə bilirik. Hətta bu fəsildə qeyd olunan bəzi maddələrin dispozisiyasında hərəkət və hərəkətsizliyin birlikdə ifadə olunmasını müəyyən edə bilərik.

Hərəkət subyektin fəal davranışını xarakterizə edir, subyekt cinayətin baş verməsi məqsədilə müəyyən davranışlar, hərəkət edir.

Cinayət Məcəlləsinin 308-ci maddəsi vəzifə səlahiyyətlərindən sui-istifadəyə həsr olunub. 308.1-ci maddədə qeyd olunub ki, vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurur.

Bu cinayətin obyektiv cəhətini təhlil etdikdə 3 mühüm əlamət əksini tapır. İlk növbədə, vəzifəli şəxsin qulluq səlahiyyətlərindən qulluq mənafeyinə zidd olaraq istifadə etməsi növündə əməldə ehtiva olunur. Burada vəzifəli şəxsin əməlində obyektiv cəhətin yuxarıda qeyd etdiyimiz zəruri əlamətinin hər iki forması qeyd olunur.

Hərəkətə münasibətdə vəzifəli şəxs özü və ya üçüncü şəxslər üçün üstünlük əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən qeyri-qanuni istifadə edir. Subyektin bu məqsədlə qulluq mənafeyinin ziddiyyət təşkil etməsinə baxmayaraq, ondan istifadə etməsi nəticəsində cinayət hadisəsi baş verir.

Maddənin dispozisiyasında qeyd olunan digər davranış isə hərəkətsizlikdə ehtiva olunur. Bu halda vəzifəli şəxsin qulluq mənafeyi müəyyən hərəkətləri etməsini tələb etməsinə baxmayaraq, o, heç bir hərəkət icra etmir.

Baxmayaraq ki, subyekt qanunla üzərinə qoyulmuş vəzifələri icra etməli idi və bu hərəkətləri icra etməməsi qulluq mənafeyi ilə ziddiyyət təşkil edir. Bu vəzifəli şəxsin qulluq mənafeləri ilə bağlı olmayan hərəkətlər olduqda isə burada 308-ci maddənin deyil, analoji olaraq 309-cu vəzifə səlahiyyətlərini aşma və ya 312-1-ci maddəyə uyğun olaraq vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) cinayətinin tərkibini yaradır.

Korrupsiya cinayətlərində hərəkət və hərəkətsizlik mütləq nəticə yaratmalıdır, baxmayaraq ki, nəticə cinayətin obyektiv cəhətinin fakultativ əlamətidir. Lakin vəzifə səlahiyyətlərindən sui-istifadə zamanı vəzifəli şəxs üzərinə normativ hüquqi aktla etməli olduğu hərəkəti mənafeyinə uyğun edir və ya etməməli olduğu hərəkəti icra edir. Eyni zamanda hərəkətsizlikdə isə onun üzərinə etməli olduğu müvafiq vəzifə öhdəlikləri qoyulsa da vəzifəli şəxs öhdəliyi icra etməyərək passiv davranış sərgiləyir və icradan imtina edir.

Həm aktiv, həm də passiv davranışdan irəli gələn və bu cinayətin obyektiv cəhətini təşkil edən əməl üçün zəruri əlaməti sui-istifadə təşkil edir. Vəzifə səlahiyyətlərindən sui-istifadə şəx-

sin üzərinə qoyulmuş qulluq səlahiyyətlərini icra etməməsi, yaxud ona verilmiş hüquq və vəzifələrin məqsəd və mənafelərinə uyğun şəkildə icra etməsidir. Səlahiyyətlərin qulluq mənafeyinə zidd şəkildə istifadə olunması 308-ci maddə ilə nəzərdə tutulmuş cinayət tərkibini yaradır.

Qeyd olunan zəruri əlamətlə yanaşı, cinayətin obyektiv cəhətinin nəticə adlı fakültətiv əlaməti meydana çıxır. Nəticə bütün növdən olan cinayətlər üçün məcburi olmasa belə Cinayət Məcəlləsinin 308-ci maddəsi üçün zəruridir. Belə ki, təqsirkarın hərəkət və hərəkətsizliyi nəticəsində fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm ziyan dəyir.

Burada vacib amil məhz fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran ictimai təhlükəli nəticənin baş verməsindədir. Fiziki və ya hüquqi şəxslərin hüquqları dedikdə, mövcud qanunvericilikdə onlara həvalə olunan, bu məqsədlərdən irəli gələn normalardır.

Cəmiyyətin və ya dövlətin mənafeləri dedikdə qanunvericilikdən irəli gələn və qorunan mənafelərdir. Burada önəmli olan faktor isə mühüm zərərdə ifadə olunan ictimai təhlükəli nəticədir [4, s.17-19].

Qanunvericilik vəzifə səlahiyyətlərindən sui-istifadəni bütün hallarda cinayət məsuliyyəti olaraq tanımır. Bu hərəkət və hərəkətsizliyin, fiziki və ya hüquqi şəxslərin, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə yalnız mühüm zərər vurduqda ictimai-təhlükəli nəticə olaraq xarakterizə olunur. Cinayət Məcəlləsinin 14.2-ci maddəsində deyildiyi kimi cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

Bu səbəbdən də, Məcəllənin 308-ci maddəsində qeyd olunan mühüm zərərdə mütləq nəzərə alınmalıdır ki, cinayətin törədilməsi ilə fiziki və hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri zərər çəkirmi, habelə nə qədər zərər çəkir, mənafelərə hansı həcmdə ziyan dəyir. Əməlin cinayət, inzibati, intizam və mülki hüquq pozuntusu olmasını fərqləndirmək üçün dəyən zərərin mühümlüyü həlledicidir.

Real maddi ziyanla bərabər, əldən çıxmış fayda, itirilmiş gəlir və s. kimi mühüm amillərlə bərabər dövlət orqanlarının nüfuzdan salınması, hakimiyyət orqanlarının qanunvericilikdə nəzərdə tutulmuş fəaliyyətinin pozulması, etimadın azalması, idarənin, təşkilatın normal iş funksiyalarına vurulan zərərin ağırlığı kimi vacib amillərlə yadda qalır.

Fiziki və hüquqi şəxslərə münasibətdə bu əməlin törədilməsi nəticəsində zərərçəkmiş vətəndaşların sayı, onlara vurulan maddi və mənəvi zərərin həcmi, əmlak ziyanının ağırlığı ilə bərabər digər ağır nəticələrdə ifadə olunur.

Özəl sektorda çalışan vəzifəli şəxsin səlahiyyətlərindən sui-istifadə etməsi nəticəsində müəssisənin fəaliyyətini dayandırması, onunla bağlanmış müqavilələrə xitam verməsi, işçilər işdən çıxarılması və s. kimi baş verən hallar mühüm ziyanda ifadə olunur [3, s.295].

Analoji olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə Rusiya Federasiyası Cinayət Məcəlləsinin 201-ci maddəsində əksini tapıb. Həmin maddədə qeyd olunur ki, vətəndaşların və ya təşkilatların hüquq və qanuni mənafelərinə və ya cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə əhəmiyyətli zərər vurma şəklində nəticələn cinayət təşkilata böyük zərər vurmada, iş yerlərinin ləğv olunmasında, fəaliyyətini dayandırılmasında, sosial əhəmiyyətli məhsulların istehsalında fasilələrin verilməsində və əsas müqavilənin pozulmasında ehtiva olunur.

Baş vermiş cinayət əməli ilə ictimai təhlükəli nəticə arasında səbəbli əlaqənin olması korrupsiya cinayətləri kimi maddi tərkibli cinayətlər üçün xarakterik əlamətdir. Əməllə nəticə arasındakı istənilən əlaqə deyil, məhz səbəbli əlaqənin olması zəruridir. Təsadüf və ya zəruri əlaqəni fərqləndirmək lazımdır, əməllə nəticə arasında yaranmış təsadüfi əlaqə korrupsiya ilə əlaqədar cinayət tərkibinin meydana gəlməsinə imkan vermir. O səbəbli əlaqə zəruridir ki, nəticə məhz əməlin tö-

rənməsinin məntiqi yekunu olsun, belə olan halda biz səbəbli əlaqəni birbaşa hesab edirik.

Cinayət Məcəlləsinin 308-ci maddəyə dair cinayətin nəticəsində hadisə baş verir, vəzifəli şəxs onun qulluq mənafeyinə zidd olaraq hərəkət və ya hərəkətsizlik edir, fiziki və hüquqi şəxslərin, habelə dövlət orqanlarının qanunvericiliklə müəyyən olunmuş mənafeləri bu əməl nəticəsində ziyan çəkir. Nəticədə mühüm zərər vurulur və bu zərər əməllə nəticə arasındakı birbaşa səbəbli əlaqədə ifadə olunur.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir (30 may 2023-cü il tarixdə olan dəyişiklik ). – Bakı: Qanun, 2023. 496 s.

2. Ağayev İ.B. Cinayət hüququ. Ümumi hissə, Leypsiq Universitetinin nəşriyyatı, Leypsiq 2015, 360 s

3. Uli L. (2024) Strengthening The Institutional System For The Management Of Confiscated Objects And Evidence Of Collateral Objects In Corruption Crimes In Indonesia. https://icless.net/ ISSN: 2985-4679 Page: 287-311

4. Pelizzo, R., Baris, O., & Janenova, S. (2017). Objective or perception-based: A debate on the ideal measure of corruption. Cornell Int'l LJ, 50, 77.

5. Səməndərov F.Y. Cinayət hüququ, cinayət və cəza məsələləri, Bakı Dövlət Universiteti nəşriyyatı, Bakı, 1994, 384 s.

**Бахруз МУСЛИМОВ**

**ОБЪЕКТИВНАЯ СТОРОНА ПРЕСТУПЛЕНИЯ ЗЛОУПОТРЕБЛЕНИЯ ВЛАСТЬЮ**

**РЕЗЮМЕ**

В данной статье анализируется объективная сторона преступления злоупотребления властью. Отмечаются необходимые и необязательные признаки объективной стороны преступления. Необходимые знаки отражаются в движении и бездействии, а факультативные признаки отражаются в таких важных признаках, как время, место и результат. Важным вопросом, характерным для данного преступления, является наличие прямой причинной связи между действием, бездействием и результатом.

***Ключевые слова***: объективный аспект, коррупция, деятельность, бездействие, злоупотреблять, результат

**Bahruz MUSLUMOV**

**OBJECTIVE ASPECT OF THE CRIME OF ABUSE OF POWER**

**SUMMARY**

The article is devoted to the objective asppect of the crime of abuse of power. Necessary and optional signs of the objective aspect of the crime are noted. Necessary signs are reflected in motion and inaction, and facultative signs are reflected in important signs such as time, place, and result. An important issue characteristic of this crime is the existence of a direct causal connection between the action and the inaction and the result.

***Key words:*** objective, the objective aspect, corruption, activity, inactivity, abuse, outcome